**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin çıxışı**

*Milli Məclis 30.05.25*

**Çox hörmətli sədarət, Dəyərli Sahibə xanım,**
**Hörmətli millət vəkilləri və media nümayəndələri!**

Diqqətinizə təqdim olunan Məlumat 3 bölmədən, 240 səhifədən ibarət olmaqla (2023-cü ildə 150 səhifə), 62 dövlət orqanı, 76 yerli icra hakimiyyəti və Naxçıvan Muxtar Respublikasından daxil olan informasiyaları əhatə etməklə Dövlət Statistika Komitəsinin və digər dövlət orqanlarının məlumatlarına əsaslanmışdır.

Hər il müvafiq dövlət qurumlarının fəaliyyətinin genişləndiyi və hesabatlılıq səviyyəsinin artması səbəbindən 2024-cü il üzrə nəticələr daha əhatəli və geniş tərtib olunmuşdur.

**2023-cü ildən fərqli olaraq Məlumata** gender büdcəsi, gender bərabərliyinin tədrisi, COP29, gender məsələləri üzrə məsul şəxslərin fəaliyyətləri, qızların təhsilinə dəstək layihələri və azadlıqdan məhrum edilmiş şəxslərlə bağlı yeni hissələr daxil edilmişdir.

Həmçinin Məlumatda Dövlət Komitəsi tərəfindən aparılan **üç araşdırmaya istinad edilmişdir,** Araşdırmaları Komitənin internet səhifəsindən tam şəkildə əldə etmək mümkündür.

Məlumatın I bölməsində normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender əsaslı ayrı-seçkilik halları ilə bağlı mövcud vəziyyət, idarəetmədə qadın və kişilərin təmsilçiliyi barədə məlumatlar öz əksini tapmışdır.

2024-cü ildə qanunvericiliyə mühüm dəyişikliklər edilmişdir.

Ailə Məcəlləsinin nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasını nəzərdə tutan **10.2-ci maddəsi ləğv edilmişdir.**
*(BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) və Qadınlara Qarşı Ayrı-seçkiliyin Ləğv edilməsi üzrə Komitəsinin (CEDAW) Azərbaycan Respublikasının dövri hesabatlarında tövsiyə olunmuşdur.)*

**Erkən evlilik və məişət zorakılığı ilə bağlı** cinayət və inzibati məsuliyyəti nəzərdə tutulan subyektlərin dairəsi genişləndirilmişdir. Ümumi bioloji baba və nənəsi olan qohumlar arasında nikahın bağlanması qadağan edilmiş, qısamüddətli mühafizə orderinin müddəti artırılmış və onun verilməsi icbarı olmuşdur.

Zərərçəkmiş şəxslərə dövlət vəsaiti hesabına **pulsuz hüquqi yardımın göstərilməsi qaydası təsdiq edilmiş**, məişət zorakılığının qarşısının alınması üzrə **monitorinq və əlaqələndirmə mexanizmi yaradılmışdır.**

Məlumatda **-** Gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində əlaqədar dövlət orqanları, müvafiq institusional mexanizmlər, QHT və media qurumlarının ilbəil genişlənən və sistemli xarakter alan fəaliyyəti əksini tapmışdır.

*Gender əsaslı ayrı-seçkiliyin qarşısının alınması sahəsində ixtisaslaşmış mexanizmlərin işinin yaxşılaşdırılması məqsədilə regionlarda və şəhərlərdə çoxsaylı təlimlər ,seminarlar keçirilmiş,vətəndaş müraciətləri və şikayətləri nəzarətə götürülmüş,monitorinq və əlaqələndirmə qruplarının fəaliyyəti təhlil edilmişdir.*

*Bir sıra problemli məsələlərə dair* **860 Dəstək Xəttinə** daxil olan müraciətlərdə (9%) artım, *(2024-330, 2023-cü ildə 302)*
**Qadın Dəstək Xətt** Xidmətinə daxil olan müraciətlərin sayında (1,5 dəfə) isə azalma qeydə alınmışdır. *(2024-cü ildə 1623, 2023-cü il 4079)*

Daxili İşlər Nazirliyinə **məişət zəmnində baş verən insidentlərə dair** daxil olmuş **müraciətlərin,** o cümlədən **cinayət hadisələrinin sayı azalmışdır.**

Bu isə ilk növbədə müdafiə mexanizmlərinin fəaliyyətinin koordinasiya edilməsi və güclənməsindən xəbər verir.

**Ötən il Zərər çəkmiş şəxslərə 325-i qısamüddətli** *(2023-cü ildə 180-i)*
**34-ü uzunmüddətli** olmaqla *(2023-cü ildə 16-sı)*
**ümumilikdə 359 mühafizə orderi** icraatda olmuşdur. *(2023-cü ildə 196)*
onlardan **338-i** qadınlara *(2023-cü ildə 187-si)*
**21-i** kişilərə verilmişdir. *(2023-cü ildə 9-u)*

***18 yaşınadək analar tərəfindən doğulan uşaqların sayında (463)və***
**(***2023 cü ildə-1742 nəfər, 2024-cü ildə 1279 olmuşdur*)

*14 iqtisadi rayon üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı* ***verilən icazələrin sayında (64 hal) azalma müşahidə olunmuşdur.***
*(2024 cü ildə -185 , 2023 cü ildə- 249 )*

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2024-cü ildə **doğulan qız uşaqları ilə oğlan uşaqları arasındakı fərq azalmışdır.** (7008-dən 6132-ə düşmüşdür.)
(Cins nisbəti hər 100 qıza 113 oğlan təşkil edir.)
***(2020-ci ildə*** *cins nisbəti hər 100 qıza 114 oğlan təşkil etmişdir.)*

*2023-cü illə müqayisədə nikahların sayı azalmış, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə qalmışdır.*
*nikaha daxilolma-***49508**
*boşanma-21384*

**Dövlətin idarə olunması və qərarların qəbulu səviyyəsində** bərabər iştiraka dair müsbət dinamika davam etmişdir. Ekranda müvafiq sahələr üzrə vəziyyətə dair statistika təqdim olunur.
Mən isə bu sahədəki yanaşmalarda getdikcə daha çox müşahidə olunan pozitiv dəyişiklikləri vurğulamaq istərdim.

**Dəyərli millət vəkilləri,**

**Məlumatın II bölməsində** Əmək, Təhsil, İqtisadi və sosial hüquqların həyata keçirilməsi sahəsində, həmçinin Qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və siyasi partiyaların fəaliyyətində gender bərabərliyinin təmin edilməsi ilə bağlı vəziyyət öz əksini tapmışdır.

Qanunun 7-16 maddələrini əhatə edən sahələrdə də pozitiv dinamika müşahidə edilməsinə baxmayaraq, bəzi nəzərəçarpan fərqlər hələ qalmaqdadır

**İlkin** məlumatlara əsasən 2023-cü illə müqayisədə 2024-cü ildə qadınların orta aylıq nominal əməkhaqqı 7,5% artaraq **791,1 manat**, kişilərin əmək haqqı isə 8,5% artaraq **1159,9 manat təşkil etmişdir.**

(2023-cü ildə qadınların orta aylıq nominal əməkhaqqı 735,7 manat, kişilər üçün bu göstərici 1069,3 manat təşkil etmişdir.)

**Digər bir slaydda isə** 2024-cü ildə
**işsiz şəxs kimi qeydiyyata alınmış,** (47,5% qadın, 52,5% kişi)
**işlə təmin olunmuş,** (34,4% qadın, 65,6% kişi),
**özünüməşğulluq proqramına** (42,5% qadın, 57,5% kişi ) və
**peşə hazırlığına cəlb olunmuş** (64% qadın, 36% kişi) şəxslərin cins bölgüsü əksini tapır.

Təqdim olunan nəticələr onu göstərir ki, müvafiq qurumlar tərəfindən aparılan məqsədyönlü tədbirlərin nəticəsində bu sahədəki statistik fərqlər optimal xarakter almaqdadır.

- Ölkə üzrə Əmək pensiyaçıları arasında qadınlar (56%, kişilər 44%)
- **Yaşa** (70%-lə) və **əlilliyə görə** (63%-lə) **kişilər**,
- **Ailə başçısını itirməyə görə** pensiya alanlar arasında bir qayda olaraq **qadınlar** (72%) üstünlük təşkil etmişdir.

**Hörmətli millət vəkilləri!**

Növbəti slaydlar təhsil hüququnun reallaşdırılmasını həyata keçirən müəssisələrdəki vəziyyəti əks etdirir.
Ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında oğlanlar 6,6% fərqlə çoxluq təşkil edir.
Peşə təhsili üzrə **kişilər (64%),**
**Orta ixtisas təhsili üzrə qadınlar (64%)** üstünlük təşkil edir.
Digər cədvəldə isə təhsilin **bakalavr dərəcəsində qadınlar (53%),**
**magistr dərəcəsində kişilər (54%)** olmaqla, təhsilalanların cins nisbəti arasındakı çox cüzi fərq özünü göstərir.

2021-ci ildən uğurla icra olunan **"Qızların təhsilinə dəstək"layihəmiz çərçivəsində 360 nəfərin ayda 200 manat olmaqla** faydalandığı "Hənifə Məlikova adına təqaüd proqramı" getdikcə daha çox şaxələnməkdədir.

Özü-özlüyündə bu layihə bütün ehtiyacların ödənilməsini təmin etməsə də, təhsil alanlar, təhsil verənlər və daha çox isə cəmiyyət üzvlərinə ötürdüyü vacib mesajlara görə qiymətlidir. O, təhsil və xeyriyyəçilik fəaliyyətlərinin əlaqələndirilməsi və tarixi ənənələrimizin gələcəyə daşınmasına töhfə verir.

**Hörmətli millət vəkilləri!**

**Qanunun 15-ci maddəsinin** nəzərdə tutduğu kişi və qadınların mülkiyyət hüququnun həyata keçirilməsinə və sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün bərabər imkanların yaradılmasına dair vəziyyətdə canlanma səviyyəsi özünü qorumaqdadır.

Bu sahəyə dövlət qayğısının hər keçən gün artırılmasına və kişilərin daha çevik yanaşmalarına rəğmən qadınlar da öz mövqelərini qorumaqdadırlar.

Müxtəlif fəaliyyət növləri üzrə **fərdi sahibkarların 23%-i**, Elektron Kənd Təsərüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş subyektlərin **27%-i qadınların** payına düşür.

Məlumatda dövlət əmlakının özəlləşdirilməsi, icarəyə götürülməsində iştirak edənlər və daşınmaz əmlak sahibləri haqqında məlumatlar da öz əksini tapmışdır.

2024-cü ilin sonuna bank sektorunda çalışan işçilərin 61,5%-ni, rəhbər vəzifədə çalışanların isə 78,9%-ni kişilər təşkil etmişdir. Məlumatda bank əmanətçiləri və kredit götürənlər ilə bağlı vəziyyət göstərilmişdir.

**Hörmətli millət vəkilləri!**

2024-cü il Azərbaycan Respublikasının və xalqının tarixinə bütün səviyyələrdə seçkilərin elan edildiyi və keçirildiyi il kimi düşmüşdür.

Siyasi partiyalar, vətəndaş cəmiyyəti qurumları və seçicilərin təşəbbüs qruplarının, o cümlədən ictimai fəal insanların və media quruluşlarının geniş cəlb olunduğu bu proses ölkəmizdəki ictimai-siyasi mühitin sağlam əsaslara söykəndiyinin, Seçki qanunvericiliyi və demokratik ənənələrimizə sadiqliyimizin göstəricisi oldu.

Dövlət Komitəsi olaraq Mərkəzi Seçki Komissiyası ilə təsdiq olunmuş fəaliyyət planımızın bütün bəndlərinin yerinə yetirilməsi, xüsusilə də qadınların seçki hüquqlarının təmin olunması və iştirakçılığının artırılması üçün birgə çalışdıq.

Bütün regionlarda seçki dairəsi və məntəqələrin nümayəndələrinin təmsilçiliyini təmin etməklə çoxsaylı görüşlər keçirdik, Seçkidə iştirakı geniş təşviq etməyə çalışdıq.

Bu seçkilərin hər zaman olduğu kimi, əsas qalibi xalqımız oldu. Amma əlbətdəki, Müzəffər Ali Baş Komandanımız başda olmaqla bütün səviyyələrdə seçkilərin qaliblərini ürəkdən təbrik edir, regionda və dünyada sülh, təhlükəsizlik və əməkdaşlıq naminə fəaliyyətlərində uğurlar arzu edirik.

Milli Məclisdə və Bələdiyyələrdə qadınların sayının yüksəlməsi isə xüsusilə diqqətçəkəndir. Çünki yalnız bu halda onlar vətəndaş cəmiyyəti quruculuğunda yaxından iştirak edə,ailə məsələləri, qadın və uşaq hüquqlarının qorunması sahəsində böyük töhfələr verə bilərlər.

Bu baxımdan 2024-cüillədək dövlət qeydiyyatına alınmış **3781** QHT öz fəaliyyətini qanunvericiliyə uyğun, xalqımızın və dövlətimizin maraqları naminə genişləndirərək milli və beynəlxalq səviyyədə uğurlar qazanmışlar.

Şəffaf və sistemli qrant müsabiqələri nəticəsində ötən il qadın hüquqları, gender siyasəti və məişət zorakılığı sahəsində 24 qrant layihəsi qalib elan edilmişdir.

Dövlət Komitəsi bu layihələrin icrasına müvafiq dəstək verməklə yanaşı bu sferada bərabər imkanlar və nəticələr üçün də töhfə verməyə çalışmışdır.

Həmkarlar ittifaqlarına gəldikdə isə onu qadınların **50,4%** üstünlüyü ilə gender bərabərliyini təmin etmiş bir təsisat olmaqla yanaşı, ölkənin həyatında qadın və kişilərin bərabər iştirakına töhfə verən klassik QHT olaraq da öz nüfuzunu qoruduğunu qeyd etmək istərdim.

Ümumilikdə isə Vətəndaş cəmiyyətləri, siyasi partiyalar və həmkarlar ittifaqlarının təsis edilməsi, üzvlüyə qəbul,eləcə də daxili proseslərin idarə edilməsində, istər qanunvericilik, istərsədə icra mexanizmləri sahəsində gender əsaslı ayrı-seçkiliyin olması ilə bağlı neqativ hallar müşahidə edilməmişdir.

**Hörmətli millət vəkilləri!**

**Məlumatın III bölməsində_**2024-cü ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr,o cümlədən təhsil, məşğulluq sahəsində gender bərabərliyinin gücləndirilməsi və gender əsaslı zorakılıq hallarının qarşısının alınması istiqamətində tövsiyələr öz əksini tapmışdır.

Bu bölmədə həmçinin mərkəzi və yerli icra orqanlarında,banklarda gender məsələləri ilə məşğul olan məsul şəxslər o cümlədən Diaspora təşkilatlarına rəhbərlik edən qadınlar haqqında müvafiq məlumatlar yerləşdirilmişdir.

**Dəyərli Sahibə xanım, hörmətli millət vəkilləri!**

Məlumata dair fikirlərimi yekunlaşdıraraq qeyd etmək istərdim ki,son 5, xüsusilə də 2024 cü ildə Dövlət Komitəsi olaraq bütün tərəfdaşlarımız və geniş təbəqələrin nümayəndələri ilə "Gender bərabərliyinin təminatları haqda", eləcə də əlaqədar qanunverici aktların nəzərdə tutduğu bərabərlik hüququnun qorunması və təminatı üçün birgə çalışdıq.

Milli və beynəlxalq miqyasda hədəflərimizə doğru bərabər irəlilədik. Xeyli gözəl nəticələrimizlə bərabər bir sıra problemlərimiz hələ də öz həllini gözləyir.

İnanıram ki, digər həmkarlarımızla yanaşı Milli Məclis üzləri,onun aparatı və peşəkar ekspertləri ilə ölkəmizin parlamenti hər zaman olduğu kimi bu sahədəki prinsipial mövqeyini nümayiş etdirərək qadın və kişilərin ölkə həyatında bərabər iştirak və bərabər məsuliyyət imkanlarının daha da artırılmasının parlament ölçüsündə tarixi xidmətlərini davam etdirəcəkdir.

Məclisin yüksək diqqətinə təqdim edilən Məlumatın tərəfinizdən obyektiv təhlil edilərək dəyərli tövsiyyələrinizi verəcəyinizə, tənqid və iradlarınızı bildirəcəyinizə ümid edərək hər birinizə dərin təşəkkürümü bildirirəm.

**Diqqətinizə görə sağ olun!**